**Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödəniş məbləğlərinin tənzimlənməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASININ QƏRARI

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Nazirlər Kabinetinin 21.11.2023 tarixli 422 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin hesablanmasına dair metodologiya"ya və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR:**

1. Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödəniş məbləğləri təsdiq edilsin (**əlavə olunur**).

2. Qoşulma və elektrik enerjisinin təchizatı xidmətləri üzrə xərclərin uçotunun ayrı-ayrılıqda aparılması və qoşulma xidməti üzrə gəlir və xərclərə dair hər növbəti il ötən ilin faktiki, cari ilin proqnoz məlumatlarının İqtisadiyyat və Energetika nazirliklərinə təqdim edilməsi "Azərişıq" ASC-yə tapşırılsın.

3. Yüksək gərginlikli şəbəkədən qoşulma xidməti üzrə təkliflərin təqdim edilməsi "Azərişıq" ASC-yə tapşırılsın.

4. Bu Qərar 2024-cü il 3 iyun tarixindən qüvvəyə minir.

**Mikayıl Cabbarov**,
**Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının sədri**

Bakı şəhəri, 3 may 2024-cü il
№ 4

Azərbaycan Respublikası Tarif (qiymət)
Şurasının 2024-cü il 3 may tarixli 4
nömrəli **qərarına Əlavə**

**Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin məbləğləri**

| № | **Xidmətin adı** | **Ölçü vahidi** | **Ödəniş məbləği** *(manat, ƏDV ilə)* |
|---|---|---|---|
| **1.** | **Məişət abonentlərinin və tələb olunan gücü 200 kVt-a qədər (200 kVt daxil olmaqla) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin mövcud 0,4 kV-luq şəbəkəyə qoşulması (təchizat sxemi üzrə)** | | |
| 1.1. | 1-fazlı (10 kVt-a qədər, 10 kVt daxil olmaqla) | 1 kVt güc üçün | 40 |
| 1.2. | 1-fazlı (10,1 kVt-dan 20 kVt-a qədər, 20 kVt daxil olmaqla) | 1 kVt güc üçün | 60 |
| 1.3. | 3-fazlı | 1 kVt güc üçün | 293 |
| **2.** | **Tələb olunan gücü 200 kVt-a qədər (orta gərginlikli şəbəkədən) və 200 kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin, habelə elektrik enerjisi istehsalçılarının tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması (3-fazlı təchizat sxemi üzrə)** | | |
| 2.1. | Aşağı gərginlikli şəbəkədən | 1 kVt güc üçün | 293 |
| 2.2. | Orta gərginlikli şəbəkədən | 1 kVt güc üçün | 170 |